# Elmi seminarda magistr təhsili: problemlər və vəzifələr haqqında

**Rəhilə Mirzəli qızı Məmmədova**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Mingəçevir Dövlət Universitetinin baş müəllimi*
**E-mail:** rahile.mamedova.1959@mail.ru
**Vaqif Tapdıq oğlu Qurbanov**
*pedaqogika üzrə elmlər doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
**E-mail:** filologiyafakultesi@yandex.ru

**Rəyçilər:** filol.ü.e.d., dos. F.R. Xalıqov,
p.ü.f.d. dos. A.X. Hacıyev

**Açar sözlər:** elmi seminar, məqsəd və vəzifələr, çətinliklər, təhsil, ziddiyyətlər, uğurlar, ixtisasa uyğunluq, gözlənilən nəticələr, son nəticələr, qiymətləndirmə, səriştə, ümumiləşdirmə, tətbiq etmə, yeni pedaqoji ideyalar, inkişaf, tərbiyə

**Ключевые слова:** научный семинар, цель и задача, трудности, образование, проблемы, удачи, соответствие в профессии, ожидаемые результаты, реальные результаты, оценка, компетенция, обобщение, внедрение, новые педагогические идеи, развитие, воспитание

**Key words:** scientific seminar, goal and task, difficulties, education, problems, luck, suitability in the profession, expected results, real results, assessment, competence, generalization, implementation, new pedagogical ideas, development, upbringing

Magistr pilləsində təhsilin məzmunu bakalavr təhsilinin zəif təkrarı olmalı deyil. Əksinə, bu məzmun yeni baza təhsili rolunu oynamalı, inkişafetdirici, tərbiyəedici, tətbiqedici xarakter daşımalı və son nəticədə - dissertasiyanın yazılmasına və müdafiə edilməsi strategiyasının hazırlığına xidmət etməlidir. Bəs əslində bu məsələdə vəziyyət nə yerdədir? Magistrlərə tədqiqat aparmağın, o cümlədən, eksperiment keçirməyin, nəticələrini elmi müddəalar şəklinə salmağın və dissertasiya, ya avtoreferat yazmağın texnologiyası necə aşılanırmı? Xeyr, aşılanmır və elə bir fənn də yoxdur. Bəs elə isə, magistrantlar necə olur ki, magistr dissertasiyası müdafiə edirlər. Ümumiyyətlə, onlar elmi tədqiqatın nə olduğunu bilirlərmi?

Biz bu məsələni bir fənnin tədrisi nümunəsindən çıxış edərək açmaq istəyirik və elmi seminarda da məruzə şəklində diqqətə çatdırmaq fikrindəyik.

Əvvələn, elmi seminarın mahiyyəti və məzmunu haqqında anlayış yaratmağa çalışaq. Təhsil sahəsində elmi seminarda problematik məsələlərlə bağlı mövzular müəyyənləşdirilər və həmin mövzularda da məruzələr, çıxışlar, dinlənilər və nəticələri də ümumiləşdirilərək təkliflərə çevrilər.

Təhsildə problematik mövzular inkişafa mane olan məsələlərdən seçilməsi və istisnalıq təşkil etməməsi təbiidir. Ənənəvi təhsildə belə hallar var idi; İndi də var.

Ənənəvi təhsildə bir məzmun xətti aparıcı olardı. Məsələn, *dil qaydaları*. Magistr dil qaydaları üzərində tədqiqatlar aparmağa yönəldilərdi. Nəticədə təhsil dilçilikdən alınan linqvistika ilə bağlı biliklər üzərində qurulardı. Məktəb kursunda tətbiqi cəhətlərə, hallara, real səriştəyə aparan yollara isə əhəmiyyət verilməzdi. Tələbələr imla, ifadə və inşadan tədqiqat aparmağın mexanizminə yiyələnməzdi. Halbuki ibtidai sinif müəllimi təhsili üzrə hər bir mütəxəs-

sisə savad təlimində imlanın necə rol oynadığını sübut etməyə ehtiyac yoxdur. Yaxud da şagirdlərin nitq inkişafının ifadə və inşa məqsədli çalışmalar üzərində qurulduğu hər kəsə məlumdur. Bunlar ibtidai təhsildə məktəb kursunun onurğa sütununu təşkil edir.

Dilçilik anlayışlarını və qaydalarını dərk etdirmək ibtidai siniflər üçün duyum səviyyəsində nəzərdə tutulmalıdır. Məsələn, isim nədir? — əşyaların adı, say — onların miqdar və sırası, sifət necəliyi və s. Eyni zamanda, onların cümlədə rolu, yaxud da sadə cümlədə üzvlərin ifadə vasitələri.

İbtidai, (elementar) təhsildən çətin dərk olunan qeyri-müəyyənliklərlə anlaşılan biliklər tələb etmək bu fənnə marağı söndürə bilər. Halbuki bunlar nəzərə alınmır. Təəssüflər olsun ki, bu səhv düşüncə tərzi, streotip indi də əməllərdə qalmaqdadır. Bunlar yeni iş sistemində açıq-aydın müşahidə olunur. Çünki ibtidai məktəb 2008-ci ildən başlayaraq 4 məzmun xətti ilə qurulsa da (1, 2), qiymətləndirmə, seçim *dil qaydaları* əsasında aparılır. Magistratura təhsilində də sanki dil qaydalarına uyğun bilik, bacarıq və vərdişlərlə işləyə biləcək praktik müəllim və ya mütəxəssis hazırlanır.

İkincisi, magistratura ya qəbul, ya da dil qaydalarının əsasında hazırlanmış test tapşırıqları ilə aparılır. Halbuki bakalavr təhsilin də metodik dərslərdə oxu, yazı, dinləmə-anlama və danışma məzmun xətləri üzrə standartların reallaşdırılması öyrədilmişdir. Məgər *dil qaydaları* özündə imla mətni, rabitəsiz və rabitəli mətni (ifadə, inşa, esse, hekayə və s.) lüğət üzrə, ədəbi tələffüz üzrə çoxgedişli işləri əhatə və ya ehtiva edirmi? *Bunlar bizə görə, ənənəvi təhsildə dil qaydalarından mədəni nitqə aparan yol hesab edilsə də, səmərəli və ya optimal yol deyildir*. Bu yolla təhsilin şəbəkəsi qapanmır, yəni şagirdlər Azərbaycan dilində oxumaq, yaşamaq, qurub-yaratmaq vərdişlərinə yiyələnə bilmirlər. Başqa sözlə, əgər məqsəd son nəticə etibarilə nitqə yiyələndirmək və ya nitq inkişafıdırsa, nəticə təfəkkür inkişafına hesablanmış olur.

Üçüncüsü, şagirdləri magistratura təhsilində Azərbaycan dili təlimi ilə bağlı hansı seçmə fənlər tədris olunur və həmin fənlər əsas fənlərin içərisindən mütəxəssis hazırlığında əhəmiyyətliliyinə görə nə kimi rol oynayır.

Azərbaycan dilindən seçmə fənlər, bizə görə, təkcə orfoqrafiya-orfoepiya təliminə görə deyil, həm də bu kimi mövzulara görə olmalıdır:

1. Optimal savad təlimi və nitq inkişafı
2. Oxu strategiyası və ədəbi tələffüz metodikası.
3. Rabitəsiz və rabitəli mətn sistemi üzrə işlər.
4. Şagirdlərin nitq və təfəkkürünün inkişaf etdirilməsi yolları və s.

Dördüncüsü. Magistraturada dil təlimi üzrə seçmə fənlər eksperimental xarakterdə qurulmalı və tələbələrə müəyyənedici, öyrədici və yoxlayıcı eksperimentlər təşkil edib keçirmək səriştəsi verilməlidir. Seçmə fənlərin son tədrisində məqsəd layihə həyata keçirmək ixtira, kəşf məqsədli olmalı, dissertasiyalar yazmaqla tamamlanmalıdır.

İbtidai təhsilin aparıcı strategiyası olan orfoqrafiya, orfoepiya əsasında qurulur. Bu işdə problem olan məsələnin orfoepiya aspektidir. Çünki şagirdlər də, tələbələr də, müəllimlər də bu normativ akta uyğun vərdişə yiyələnə bilmirlər. Bu məsələdə metodikamızı təkmilləşdirə bilmirik ki, bunun da ən azı 10 obyektiv və subyektiv səbəbləri var.

Elmi seminarlarda da məhz bu kimi məsələlərin üzərində baş sındırmaq lazımdır; yəni necə etməli ki, bir neçə nəfər müəllim bu fəndən dərs dediyi halda, düşünüb vahid konsesusa gəlinmir. Səbəb isə odur ki:

1) Özümüzə tənqidi yanaşmaq və etiraf etmək etikamız çatmır;
2) Dinləmək, anlamaq, öyrənmək istəmirik;
3) Təhsilin məqsəd və vəzifələrinin axtarıb-tapmaqdan və ya mənimsətməkdən ibarət ol-

duğunu dərk etmək istəmirik;

4) 2009-cu ildən bu yana magistratura təhsilinin metodologiyası tədqiq olunmamış və tədris planları, plan-prospektlər əsasnamələr şəklinə salınmamışdır.

Elmi seminarlarda məhz bu kimi məsələlərdən təkliflərlə danışılar və müzakirələr keçirilər, nəticələri təkliflərə çevrilər.

Vaxtilə mərhum prof. Ə.R. Əfəndizadənin rəhbərliyi ilə Sumqayıt, Bakı, Biləcəridə, Oğuz, Şəki, Dəvəçi rayonlarında elmi seminarlar keçirəndə müəllimlərin günün birinci yarısında açıq dərsləri dinlənilər, sonra seminar -müşavirələr keçirilərdi. Belə müşavirələrin əhəmiyyəti özünü yeni ideyaları sınaqdan keçirməkdə göstərirdi. Yeni ideyalar da o zamanlara görə, ya biliyin problem – situasiyalar yaratmaqla ya mənimsədilməsindən, ya təlim prosesinin intensivləşdirilməsindən, yaxud da ki optimal təlim prosesinin qurulmasından ibarət olardı.

Keçən əsrin 70-80-ci illərində məktəb təcrübəsində texniki-təlim vasitələrinin tətbiqi ilə alınan nəticələrin təfəkkür inkişafına müsbət təsiri məsələləri eksperimental sınaqlardan keçirilmişdi, habelə Şalva Amonaşvili nikbinlik pedaqogikasının şagirdlərin idraki fəallığına təsiri sınanmışdı. Qabaqcıl təcrübənin müşahidələr əsasında da seminarlar qurulardı və pedaqogika, metodika üzrə yeni elmi nəticələr çıxarılardı.

Biz magistratura pilləsində də tədqiqata meyilli dərslər və layihələr həyata keçirilməsini təklif edirik.

Beşincisi, Magistratura təhsilində layihələndirmə, öyrədici və yoxlayıcı eksperiment bacarıqları aşılanmalıdır. İki il ərzində magistrlərə dissertasiya haqqında eksperimental tədqiqat dərsləri keçilməlidir. Mövzular tədqiqat işlərindən və ümumiləşdirmə metodlarından ibarət olmalıdır.

Magistrantların müəllim və ya natiq alim kimi yetişməsində natiqlik dərsləri, xüsusən də natiqlik təlimi əsas fənn kimi nəzərdə tutulmalıdır. Magistrlərin natiqliyində öyrədicilik, təsiredicilik, habelə nitqin aydınlığı, özünəməxsusluğu, yəni orijinallığı mühüm cəhət kimi qiymətləndirilməlidir. Təəssüf ki, natiqlik təlimi seçmə fənn nomenklaturasına daxil edilmir. Çünki bu fənnin əhəmiyyətli olmasına qiymət verilmir. Nəzərdə tutulmur ki, ibtidai təhsil və filologiya fakültələrində bu fənn praktik dilçilik kimi tədris olunur; yeni təlim metodologiyası kimi nitq mədəniyyəti metodikası kimi tədris olunmur. Nitq mədəniyyəti metodikası magistrlərin tədqiqat mövzularına çevrilmir. Bu çox ciddi məsələdir və mütləq də nəzərə alnmalıdır.

Altıncısı, Magistrlərin bakalavriat pilləsində olduğu kimi, yazılı şəkildə imtahan verməsi qəbuledilməzdir. Bu onları savadlı dissertasiya müdafiəsinə hazırlamır, mühakimələrdən məhrum edir. Onlar şifahi imtahan verməyə alışmalıdırlar.

Qeyd: biz bir vaxtlar nitq mədəniyyəti fənnin imtahanlarını əvvəl şifahi keçirməyə nail olduq, lakin nitq inkişafı fənnini keçirə bilmədik. Göründüyü kimi, bu cür subyektiv çətinliklər yolverilməzdir. İmtahanın şifahi və yazılı olmasını tələbələr yox, fənnin ixtisasa uyğunluq prinsipi ilə müəyyən edən müəllim olmalıdır. Belə yerdə tələbə rəyi ilə razılaşmaq abıvatellikdən başqa bir şey deyil. Odur ki, elmi seminarda bu mülahizə nəzərdən keçirilməli və möhkəm mövqe müəyyən edilməlidir.

Nəticə və təkliflərimiz: Magistratura fakültəsində problemlər və vəzifələr beynəlxalq elmi-praktik konfrans mövzularına çevrilməlidir və orada, təxminən, bu kimi təkliflər səsləndirilməlidir:

1. Magistratura pilləsinin fənlərinə ixtisasa uyğun yönümdən baxılmalıdır.
2. Nitq inkişafı və nitq mədəniyyəti fənlərinin imtahanları şifahi keçirilməli
3. Magistratura fakültəsində fənlər üzrə mühazirələr metodoloq alimlərə həvalə olunmalıdır.
4. Magistratura təlimi elmi-tədqiqat istiqamətində qurulmalı, dissertasiyalarla tamamlan-

mağa hesablanmalıdır.

**Məqalənin aktuallığı.** Elmi seminarda Magistr təhsilinin bir sıra problemləri vardır, təhsilin qarşısında bir çox vəzifələr dayanır. Məqalədə həmin məsələlərə həsr olunduğundan aktuallığı ilə seçilir.

**Məqalənin elmi yeniliyi.** Elmi seminarda magistr təhsilinin problemləri və vəzifələri diqqət mərkəzinə gətirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə dissertant və doktorantlar, magistrantlar üçün faydalı ola bilər.

## Ədəbiyyat

1. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı: Kövsər, 2008.

**Р.М. Мамедова, В.Т. Гурбанов**

## Магистерское образование на научном семинаре: проблемы и задачи

## Резюме

Научный семинар должен прояснять вопросы, препятствующие общему развитию и создающие проблемы. Магистерское образование следует рассматривать как серьезный проверочный этап в непрерывном образовании, и он должен строиться намного выше, чем степень бакалавра. Наряду с успехами следует упомянуть проблемы и искать способы решения.

Принцип соответствия специальности в магистерском образовании должен стать ведущей стратегией, определены научные гипотезы, защита научных положений от экспериментов, обмен мнениями по этим положениям, а результаты должны быть представлены руководству АГПУ. В статье обсуждаются подобные задачи  и в обращении к специалистам, предлагаются выражение их отношения к данному вопросу.

**R.M. Mammadova, V.T. Gurbanov**

## Master's degree at a scientific seminar: problems and tasks

## Summary

The scientific seminar should clarify issues that impede overall development and create problems. A master's education should be seen as a major test stage in continuing education and should be built much higher than a bachelor's degree. Along with successes, problems should be mentioned and solutions should be sought.

The principle of correspondence of the specialty in master's education should become the leading strategy, scientific hypotheses are determined, protection of scientific provisions from experiments, exchange of views on these provisions, and the results should be presented to the management of ASPU. The article discusses similar tasks and in addressing specialists, offers an expression of their attitude to this issue.

**Redaksiyaya daxil olub:** 13.11.2020